

**Nadirə**
**NƏZƏR**

**'Də, hardan tapırsın qaçmağa imkan,**
**Mən səni Allahdan istəyəcəyim..."**
*Zeba Mirza*

Hər halda, unuda bilməzsən heç,
Hər halda, xatırına gələcəm.
Səhralar Şəms deyil gözlər dənizi,
Mən sənin yağışın kimi olacam.

Bilirəm, Göy kimi yalnızsın hələ,
Aylara bərabər yaşarsın təkcə.
Adımı gec-gündüz təkrarlayınca,
Hər zaman möhürləyip məni ürəyə.

Hər halda, mən səndə yaşarım məngü,
Ağır gəlirsə də taş kimi bağir.
Sadəcə doğulmaz en son kədər də,
Heç kimi böyləcə udmayacaq yer.

Hər halda, könlündən silə bilməzsən...

***

Məktub da yazmırsan — gözləyirəm,
Sənin deyə bağlıyam rüyaya.
Xəyalda əlini tuturam,
Bir yabancı olub dünyaya...
Sən — həmin, özündən ardmayan,
Sən — həmin, ən uzaq səmasan.
Sən həmin — sözündən dönməyən,
Sən pissən,
Sən pissən,
Sən pissən
Ulduza çatamaz əllərim,
İqrarim özümü yenməyə.
Gözləməsdən durmaz yollarım,
Səndə cəsarətin yox gəlməyə.
Üzünü görəcəm,
itirsəm...
Əslində, kimliyini bilmirəm.
Səni bu həyatda görməsəm,
Mən daha dünyaya gəlməyəcəyəm.
Ümidim ürəyə tutur bal...
Özümdən güclüdür səbatim.
Sən niyə vardırsan, ey xəyal,
Sən niye yoxdursan, həyatim?
Ruhumdan böyükdür bu hicran,
Yolsuzluq ürəyə daş oldu.
Gözləyirəm bir səhra kimi,
Dəniz kimi taş — oldu, taş — oldu.
Sən həmin ərmana bənzərsin,
Suala bənzərsin, sirrsan, sirr.
Bilirəm...
Gəlmirsən,
Gəlmirsən,
Mənsə gözləyirəm
nədənsə...

Tərcümə etdi: Rəhmət Babacan